**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ AZƏRBAYCAN BƏDİİ ƏDƏBİYYATI VƏ PUBLİSİSTİKASINDA SOYQIRIM PROBLEMİ

İxtisas: 5716.01 – Azərbaycan ədəbiyyatı

Elm sahəsi: Filologiya

İddiaçı: **Samirə Abbas qızı Kərimova**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Erkən realizm və Yeni dövr Azərbaycan ədəbiyyatı şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru, dosent
**Lütviyyə Süleyman qızı Əsgərzadə**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Elman Hilal oğlu Quliyev**

filologiya elmləri doktoru, dosent
**Əlizadə Bayram oğlu Əsgərli**

filologiya elmləri doktoru, dosent
**Səbinə Namus qızı Əhmədova**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ Akademik, filologiya elmləri doktoru, professor
**İsa Əkbər oğlu Həbibbəyli**

Dissertasiya şurasının elmi katibi: ____________ filologiya üzrə fəlsəfə doktoru, dosent
**İsmixan Məhəmməd oğlu Osmanlı**

Elmi seminarın sədri: ____________ filologiya elmləri doktoru, professor
**İmamverdi Yavər oğlu Həmidov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Elmi-tədqiqat mövzusu olaraq araşdırılan "XX əsrin əvvəllərində Azərbaycan bədii ədəbiyyatı və publisistikasında soyqırım problemi" adlı dissertasiya işi dövr etibarilə XX əsrin əvvəllərində qısa bir dövrü əhatə etsə də, ermənilərin azərbaycanlılara qarşı dəfələrlə həyata keçirdikləri qırğınların baş verdiyi tarixi şəraitin təhlil edilməsi və nəticələr çıxarılması baxımından öz aktuallığını bu gün də saxlamaqdadır.

Soyqırımı və ya genosid (yun. γένος – nəsil и lat. caedo – öldürürəm sözlərindən) – etnik, irqi, dini və ya milli qrupun düşünülmüş və sistematik şəkildə tam və ya qismən məhv edilməsi; kütləvi şiddət forması deməkdir.

Məlumdur ki, ermənilər XV əsrə qədər Qafqazda yaşamamış, yalnız XV əsrin əvvəllərində "Qaraqoyunlu" hökmdarı Qara Yusifdən Qərbi Azərbaycanın "Üçməzdin", yəni üç müəzzin deyilən bölgəsində dini mərkəzlərini yaratmaq üçün rüsxət almışlar. Bundan sonra xırda ticarət adıyla zaman-zaman yerli türk-müsəlmanlardan ucuz qiymətə torpaq alaraq orda məskunlaşmağa başlamışlar. XIX əsrin əvvəllərində Şimali Azərbaycan xanlıqlarının çar Rusiyası tərəfindən işğalından sonra ermənilərin kütləvi surətdə Cənubi Qafqaza köçürülməsi bu regionun qədim zamanlardan bəri davam edən ənənəvi etnik-siyası və dini mənzərəsinin dəyişməsinə səbəb olmuşdur. XV əsrdən həm də, Osmanlı torpağında məskunlaşan ermənilər zaman-zaman Osmanlı sultanlarından vəzifələr almış, bəzən hakim dairələrə qədər yer tutmuşlar. XIX əsrin əvvəllərindən Rusiyanın, Fransanın, İngiltərənin, Yunanıstanın dəstəyi ilə ermənilər dəfələrlə qırğın törətmişlər. Qafqazda isə əsasən çar Rusiyası tərəfindən güclü dəstək görən ermənilər XX əsrin əvvəllərindən etibarən Qafqaz boyu azərbaycanlılara qarşı kütləvi soyqırımlar və qırğınlar törətmiş, deportasiyalar həyata keçirmişlər.

Tarixdə yaşanmış real hadisələr həmçinin ədəbiyyatda da öz əksini tapır, inikas edirdi. Xalqımız son yüz il ərzində mürəkkəb ictimai-siyasi şəraitdə qanlı qırğınların, deportasiyaların ağrılı, əzablı yollarından keçmişdir. XX əsrin əvvəllərində Azərbaycan türklərinə qarşı törədilmiş soyqırımlar, xüsusilə də 31 Mart

soyqırımı xalqımızın tarixi yaddaşında acı bir həqiqət olaraq qalmaqdadır. Tarixən qonşu dövlətlərə qarşı məkrli ərazi iddialarını gerçəkləşdirmək, “Böyük ermənistan” xülyası ilə yaşayan erməni millətçiləri bütövlükdə bəşəriyyətə və insanlığa qarşı yönəlmiş soyqırımı, terror siyasəti həyata keçirmiş, dəhşətli cinayətlərə əl atmışlar. Bu acı həqiqət təkcə soydaşlarımızın qətliamı ilə deyil, həm də tarixi ərazilərimizin müəyyən hissəsinin işğalı ilə də nəticələnmişdir.

Azərbaycanlıların soyqırımı hadisəsi əsasən 1905-ci ildən etibarən başlanıldı. Lakin həmin ərəfədə erməni daşnaklarının azərbaycanlıların kökünü kəsməkdən ötrü bir o qədər də gücləri yox idi. Məmməd Səid Ordubadinin “Qanlı sənələr”[1] tarixi-etnoqrafik romanına, Mir Möhsün Nəvvabın “1905-1906-cı illərdə erməni-müsəlman davası”[2] əsərinə, Hüseyn Baykaranın “Azərbaycanın istiqlal mübarizəsi”[3] tarixi-etnoqrafik monoqrafiyasına nəzər yetirərkən erməni daşnaklarının nə qədər qəddar və amansız olaraq əsasən silahsız insanlara qarşı qətliam törətsələr də, türk-müsəlman igidləri tərəfindən məğlub olduqları və türk müsəlmanlara nisbətən daha çox itki verdikləri bəyan olur.

1918-ci il Mart soyqırımı haqqında yazarkən müəyyən dövrləşmənin aparılması zəruriyyəti meydana çıxmış və şübhəsiz ki, 1905-1906-cı illərin soyqırımları da tədqiqata cəlb edilmişdir.

Ermənilərin üç dəniz arasında – “Dənizlərdən dənizə” imperiya yaratmaq xülyaları səbəbindən Qafqaz və Anadolu daim münaqişə ərazisinə çevrilmişdir. Erməni Milli komitəsinin cızdığı bu saxta imperiya xəritəsi türk xalqalarının tarixi torpaqlarını əhatə edirdi və onları zamanla bu ərazidə məskunlaşmış yerli xalqların sıralarına yerləşdirməyə çalışmışlar. Erməni Milli komitəsi adlı qurum – Daşnaqsütyun (1890, Tiflis) partiyası millətçilik ideologiyasının ifadəçisi idi və sözügedən təşkilat öz məqsədinə

[1] Ordubadi, M.S. Qanlı sənələr (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi) / – Bakı: Maarif, – 1991. – 141 s.

[2] Nəvvab, M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. / – Bakı: Azərbaycan nəşriyyatı, – 1993. – 128 s.

[3] Baykara, H. Azərbaycan İstiqlal Mübarizəsi tarixi. / – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1992. – 120 s.

çatmaq üçün göz dikdiyi ərazilərdəki türk xalqlarını məhv etmək, qalanlarını isə deportasiyaya məruz qoymaq məqsədi güdür, bütün vasitələrlə türklərə qarşı kin və ədavət duyğusunu gücləndirməyə çalışırdı. Həmin cəhdlər isə müəyyən dövlərdə milli ədavətə və 1905-1906-cı illər, 1918, 1988-92-ci illərdə azərbaycanlıların soyqırımına və deportasiyasına gətirib çıxarmışdır.

Müşahidələr göstərir ki, xalqın həyatında baş verən mühüm sosial-tarixi və milli-mənəvi proseslərdə ictimai fikrin formalaşdırılmasında mühüm rol oynayan ədəbi-ictimai fikir həmin hadisələ də, fəal müdaxilə etmişdir. Dövrün tanınmış ədiblərindən M.S.Ordubadi, M.M.Nəvvab, C.Cabbarlı, M.Hadi, M.B.Məhəmmədzadə, C.Məmmədquluzadə, S.Axundzadə, S.Hüseyn, M.Ə.Sabir, H.S.Səyyah, Ü.Hacıbəyli, M.Ə.Rəsulzadə və başqalarının poeziya, nəsr, publisistika və dramaturgiya nümunələrində soyqırım hadisələrinə münasibət bildirilmiş, onun mahiyyətinin açılaraq qarşısının alınmasına təşəbbüslər göstərilmişdir.

Azərbaycan çar Rusiyası tərəfindən işğal olunduqdan sonra, azərbaycanlıların Sovet imperiyasının əsarətinə düşməsi və tətbiq edilən amansız ideoloji siyasət imperiya daxilində yaşayan türk xalqlarının ictimai-mədəni həyatına da öz təsirini göstərməsinə səbəb oldu. Sovet ədəbiyyatşünaslığının tələbləri tədqiqatçılara daşnak-bolşevik neofaşist hərbi birləşmələrinin törətdiyi cinayətlər haqqında qələmə alınmış bədii nümunələri obyektiv elmi əsaslarla öyrənməyə imkan vermirdi. Onlar Azərbaycan ədəbiyyatının bir qolunu təşkil edən bu mövzulu bədii nümunələri zərərli ideoloji düşüncə təzahürü, mürtəce ədəbiyyat və millətçilik kimi təqdim edirdilər.

Qeyd etdiyimiz kimi, tədqiqat işinin ayrı-ayrı istiqamətləri üzrə bir sıra araşdırmalar aparılsa da, vahid sistem şəklində tədqiqat işi təhlillərə cəlb edilməmişdir. Tədqiqatda Azərbaycan, Türkiyə və Mühacirət ədəbiyyatımızın nümayəndələrinin soyqırıma dair yaradıcılığı dissertasiya səviyyəsində araşdırılmışdır.

XX əsrin əvvəllərində erməni bolşeviklərinin azərbaycan və türk xalqına qarşı törətdikləri soyqırımı hadisələrinin təfərrüatlarını ictimaiyyətin diqqətinə çatdırmaq məqsədilə akademiklər İsa

Həbibbəyli, Yaqub Mahmudov, Teymur Kərimli, professorlar Yavuz Axundlu, Asif Rüstəmli, İslam Qəribli, Lütviyyə Əsgərzadə, Vüqar Əhməd, Əlizadə Əsgərli, Vaqif Arzumanlı, Vilayət Quliyev, Alxan Bayramoğlu, Abid Tahirli, Nikpur Cabbarlı, Şahbaz Musayev, Elçin Mehrəliyev, Tahirə Məmməd, Mərziyyə Nəcəfli, Akif Aşırlı və digər görkəmli alimlərimiz XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımı haqqında arxiv sənədləri əsasında yüksək elmi araşdırmalar aparmışlar. Və nəticəsində azərbaycanlıların soyqırımı haqqında bədii nümunələr elmi tədqiqatlara cəlb edilmişdir. Dünya ictimaiyyətinin həqiqətlərdən xəbərdar olması üçün elmi məqalələr, kitablar, monoqrafiyalar görülən işlər sırasında mühüm əhəmiyyət kəsb edir. Müstəqillik dövründə Ermənistan-Azərbaycan münasibətləri, soyqırım və milli ideologiya mövzusunda yazılmış əsərlər, müqayisələr ideoloji mahiyyət daşımaqla yanaşı, həm də elmi-tədqiqat səviyyəsində obyektiv mənzərəsini yaratdı və mövcud tarixi faktlara əsaslanan elmi əsaslarla daha dərindən araşdırılmağa başlanıldı.

Tədqiqat işində yuxarıda qeyd etdiyimiz müəlliflərin monoqrafiya və məqalələrinə istinad olunmaqla həmin mənbələrdən elmi-nəzəri zəmində bəhrələnilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqat işinin obyektini XX əsrin əvvəllərində Azərbaycan, Türkiyə və Mühacirət ədəbiyyatımızın nümayəndələrinin daşnak-bolşevik neofaşist hərbi birləşmələrinin Bakıda müsəlman-türklərinə qarşı törətdikləri soyqırım, eyni zamanda bütün Qafqaz boyu daşnak-bolşevik birləşmələrinin azərbaycanlılara qarşı törətdikləri qətliamlar və bu qətliamlara həsr edilmiş şeir, bədii nəsr nümunələri, dram əsərləri təşkil edir. Dissertasiya işində XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımının bədii ədəbiyyat və publisistikada təcəssümü təhlillərə cəlb edilmişdir.

Tədqiqat işinin obyekti zaman və ədəbi material sərhədləri etibarilə təxminən 20 ildən çox bir dövrü əhatə edir. Burada xüsusilə meydana gələn ədəbi nümunələrin seçilməsinə tətbiq olunan meyar önəmli rol oynayır. Tədqiqata Azərbaycanın görkəmli şairləri Məhəmməd Hadi, Əhməd Cavad, Abbas Səhhət, Əmin Abid, Ümmügülsüm, Səməd Mənsur, Əlabbas Müznib, Məmməd Araz,

bütün türk dünyasının dahi şairi Mehmet Akif Ərsoy və s. şairlərin şeir nümunələri, M.S.Ordubadi, M.M.Nəvvab, Qurban Səid və s. yazıçıların romanlarından parçalar, C.Məmmədquluzadə, C.Cabbarlı, H.Cavid və digərlərinin dram əsərlərindən parçalar, Cəfər Cabbarlı, Seyid Hüseyn və Seyidağa Axundzadənin hekayələri, M.M.Nəvvab, H.Baykara və s. tarixi-etnoqrafik əsərlərindən parçalar salınmışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi XX əsrin əvvəllərinə dair yazıçı-şairlərin inkişafı yollarını araşdırmaq, ədəbiyyat tariximizdə onların mövqeyini, oynadığı rolu, nüfuzunu müəyyənləşdirmək, onların azərbaycanlıların soyqırımına dair yaradıcılığının necə və hansı yollarla əks olunduğunu göstərmək, ona obyektiv qiymət verməkdir. Həmçinin XX əsrin əvvəllərində baş vermiş soyqırımlara həsr edilmiş bədii-ədəbi nümunələr, onların həmin dövrdə Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələrlə bağlı təsdiqi, məziyyətləri, dəyəri, təhlili, onların müəllifləri haqqında qısa məlumat, eyni zamanda sovetlər dönəmində ört-basdır edilmələrinin səbəbidir. Lakin dövrümüzdə də həmin mövzuda qələmə alınan əsərlər bu baxımdan vacib əhəmiyyət kəsb etdiyi üçün tədqiqata daxil edilmişdir. Qeyd edilən məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi məqsədəuyğun hesab edilmişdir:

- XX əsrin əvvəllərində baş vermiş qanlı soyqırımlar haqqında qələmə alınan bədii nümunələrin məzmunu ilə bağlı dəqiqləşdirmələr aparmaq;
- XX əsrin əvvəllərində və sonrakı dövrlərdə 1905-06-cı illər və 1918-ci il mart soyqırımları ilə bağlı yaranmış bədii əsərlərin, eyni zamanda həmin dövrdə dərc olunan məqalələrin, şeirlərin, felyetonların ədəbiyyat və mətbuat tarixindəki mövqeyini, təşəkkül və inkişaf xüsusiyyətlərini göstərmək;
- Milli İstiqlal ideyalarının və Azərbaycan Xalq Cümhuriyyətinin yaranması istiqamətində 1918-ci il mart soyqırımının tarixini ümumi şəkildə nəzərdən keçirmək;
- Soyqırım mövzusunda yaranmış bədii əsərlərin və mətbuat nümunələrinin ədəbiyyat və mətbuat tarixindəki mövqeyini, yaranma və yaşama prinsiplərini, səciyyəvi xüsusiyyətlərini

göstərmək, ayrı-ayrı ədiblərə, şairlərə, publisistlərə təsirini müəyyənləşdirmək;

- XX əsrin əvvəlləri və sonrakı dövrlərdə mart soyqırımından bəhs edən bədii əsərləri və mətbuat nümunələrini təhlil etmək;

- XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımı haqqında yazan ədiblərimizin həmin dövrə aid əsərlərində 70 il sovetlər dönəmində təhrif olunmuş tarixlərin və hadisələrin əvəzinə, təkzibedilməz tarixi faktlar əsasında yaratdıqları və yalnız həqiqəti əks etdirən bədii əsərlərinin bədii-fəlsəfi inikasını sübuta yetirmək;

**Tədqiqat metodları.** Dissertasiya işinin yazılmasında daha çox tarixi, tarixi müqayisəli və elmi-təsviri metodlardan istifadə edilmişdir. "XX əsrin əvvəllərində Azərbaycan bədii ədəbiyyatı və publisistikasında soyqırım problemi" adlı dissertasiya işi soyqırıma dair bədii nümunələr və tədqiqatçıların əsərlərinə istinad edilməklə araşdırılmışdır. Burada irəli sürülən fikirlər XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımı haqqında araşdırma aparan tədqiqatçıların elmi-nəzəri müddəalarına əsaslanır.

Bundan əlavə dissertasiyada soyqırıma dair Azərbaycan, Türkiyə və Azərbaycan mühacirət nümayəndələrinin əsərlərində tədqiq edilən mövzu müəyyən aspektlərdən işıqlandırılmışdır. XX əsrin əvvəllərində qələmə alınan və baş vermiş soyqırım hadisələrinə həsr olunmuş əsərlər həmin dövrün ədəbiyyatşünaslığı, tarixi və milli mətbuatı üçün mühüm qaynaq hesab olunur. Bu əsərlər istifadə olunmuş metod və prinsiplər nöqteyi-nəzərindən sırf elmi-tədqiqat xarakteri daşımasa da, dövrə görə hadisələrin mahiyyəti bəzən təhrif edilsə də, soyqırıma dair hadisələrin xronoloji ardıcıllıqla işıqlandırılmasına və müəyyən ümumiləşdirmələr aparmağa imkan verir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiya işində Azərbaycan, Türkiyə və Azərbaycan mühacirət nümayəndələrinin soyqırım mövzusunda yazdıqları bədii nümunələrin dövrə və zamana görə həm məzmun, həm də forma baxımından dəyişməsi və araşdırılması tədqiqata cəlb edilmişdir. Tədqiqat işində aşağıdakı müddəalar müdafiəyə çıxarılmışdır:

- Yazıçı-şairlərin yaradıcılığının işğal problemi baxımından sistemli araşdırılması bir sıra problemlərin ardıcıllığını zəruri edir;

- XX əsrin əvvəllərindəki ictimai-siyasi hadisələr, soyqırımlar, qarşıdurmalarla əlaqədar həmin dövr yazıçı-şairlərin dəsti-xətti mövzu və məzmun cəhətdən spesifiklik qazanır. Ədəbi-mühit şairlərinin həmin dövrə uyğun bədii yaradıcılıq məziyyətlərinin özəlliklərini aydınlaşdırır;

- Ədəbi-bədii nümunələr XX əsrin əvvəllərində baş verən soyqırımların miqyasını, ziddiyətli, təlatümlü hadisələri aydınlaşdırmaq baxımından mühüm rol oynayır;

- Tədqiqatın əsas qayəsi ermənilərin işğal etdiyi, qətliam törətdiyi torpaqlarda baş vermiş soyqırım hadisələrinin ideoloji-siyasi mənzərəsində kimlərin dayandığını aydınlaşdırmaq və erməni tipinin hansı təhlükələrə yol açdığını müəyyənləşdirmək baxımından bədii ədəbiyyat nümunələri olduqca vacib faktura ilə səciyyələnir;

- Sovetlər dönəmində gizlədilmiş faktları üzə çıxarmaq, baş vermiş hadisələr barədə haqqı-ədaləti bərpa etmək, təkzibolunmaz dəlillər əsasında ermənipərəst dairələrin uydurmalarını ifşa etmək;

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işindəki elmi yeniliklər aşağıdakılardan ibarətdir:

- Tədqiqat işi ilk növbədə problem-mövzunun müstəqil dissertasiya səviyyəsinə gətirilməsi ilə müəyyənləşir. "XX əsrin əvvəllərində Azərbaycan bədii ədəbiyyatı və publisistikasında soyqırım problemi" adlı dissertasiya işi ədəbiyyatşünaslıq elmində bu mövzuda sistemli şəkildə yazılan ilk elmi tədqiqat işidir;

- XX əsrin əvvəllərində Azərbaycan bədii ədəbiyyatı və publisistikasında soyqırım problemi əsasən məhz həmin dövr şair və yazıçılarının yaradıcılığı əsasında tədqiqata cəlb edilmişdir;

- Sovetlər dönəmində XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımına dair yazılmış bədii nümunələrə dair gizlədilmiş faktların arxiv materialları əsasında dəqiq araşdırılaraq haqq və ədalətin bərpa edilməsi istiqamətində müəyyən addımlar atılmışdır;

- Dissertasiya işində təkcə azərbaycanlıların soyqırımına dair bədii nümunələr tədqiq edilməmiş, həmçinin həmin dövrün ictimai-siyasi-mədəni mənzərəsi haqqında ciddi təsəvvür yaranmışdır;

- Tədqiqat işində həmçinin Milli İstiqlal ideyalarının təbliği, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gedən yolun Mart soyqırımından keçməsi, eləcə də həmin dövr ədiblərimizin

yaradıcılıqlarının milli azadlıq şüarı altında özlərini səfərbər etmələri öz əksini tapmışdır;

- Dissertasiyaya təkcə həmin dövr deyil, həmçinin müstəqillik illərində də XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımına həsr edilmiş bədii nümunələr cəlb edilmişdir;

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində nəzərdən keçirdiyimiz XX əsrin əvvəllərində Azərbaycan bədii ədəbiyyatı və publisistikasında soyqırım problemi ilk dəfə dissertasiya səviyyəsində araşdırmaya cəlb edildiyi üçün tədqiqat işindən bu sahə ilə məşğul olan mütəxəssislər yararlana və mənbə kimi istifadə edə bilərlər. Araşdırmanın mahiyyəti əldə olunmuş materiallar əsasında meydana gələn nəticələrin bundan sonrakı tədqiqatlara, eyni zamanda ədəbiyyatşünaslara müsbət təsiri ilə vurğulanır. Tədqiqat işindən müxtəlif monoqrafiya, dərslik, dərs vəsaitlərinin yazılmasında, eləcə də ali təhsil ocaqlarında soyqırım mövzusunda mühazirə mətnlərinin hazırlanmasında da istifadə edilə bilər. Tədqiqat işi həm elmi, həm siyasi, həm də aktual xarakter daşıdığı üçün xarici dillərə tərcümə edilərək azərbaycanlıların soyqırımının dünya ictimaiyyətinə dəqiq faktlar əsasında çatdırılması baxımından çox əhəmiyyətlidir.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Erkən realizm və Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmişdir. Dissertasiyanın ayrı-ayrı müddəaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi jurnallarda, ölkədə və xaricdə keçirilən beynəlxalq və respublika səviyyəli elmi konfranslarda, eyni zamanda beynəlxalq xülasələndirmə və indeksləmə sisteminə daxil olan (Copernicus) jurnalında nəşr edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun "Erkən realizm və Yeni dövr Azərbaycan ədəbiyyatı" şöbəsində yerinə yetirilmiş, şöbənin tədqiqat istiqamətinə uyğun olaraq tamamlanmışdır.

**Dissertasiya işinin strukturu və ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş – 14979 şərti işarədən, I fəsil – 75899 şərti işarədən, II

fəsil – 74204 şərti işarədən, III fəsil – 74634 şərti işarədən, nəticə – 9041 şərti işarədən ibarətdir.

Dissertasiya işinin ümumi həcmi 248757 şərti işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **Giriş** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın məqsəd və vəzifələri, nəzəri-metodoloji əsaslarından bəhs edilmiş, müdafiəyə çıxarılan əsas müddəalar göstərilmiş, dissertasiya işinin elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti əsaslandırılmışdır.

Dissertasiya işinin birinci fəsli *"Azərbaycanlılara qarşı soyqırımlarının poeziyada bədii əksi"* adlanır və iki paraqrafdan ibarətdir.

Bu fəslin *"Azərbaycan poeziyasında soyqırım mövzusu: məsələnin qoyuluşu və bədii-tarixi qaynaqları"* adlı ilk paraqrafında XX əsrin əvvəllərində Azərbaycan poeziyasının özünəməxsus inkişaf və təkamül yolu, əsil vətəndaş ədəbiyyatının formalaşması, həmin dövr Azərbaycan poeziyasında soyqırım mövzusunun geniş şəkildə təsvir və təbliğ edilməsi araşdırmaya cəlb edilmişdir.

Dissertasiyada XX əsrin əvvəllərində baş verən ictimai-siyasi hadisələr ilə əlaqədar olaraq, həmin dövrdə ədəbi-ictimai fikrin formalaşması, onun ədəbiyyatın bütün janrlarında, xüsusilə də poeziyada mahiyyətinin təhlilinə yer verilməsi diqqəti cəlb edir. Və bütün baş verən hadisələrin kontekstində poeziyanın inkişafı və ədiblərimizin soyqırım hadisələrinə münasibəti milli istiqlaliyyətin möhkəmləndirilməsi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gedən bir yol kimi qiymətləndirilir.

XX əsrin əvvəllərində xüsusilə də Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycanlıların soyqırımının poeziyada əksi, ifadə olunma tərzi, Cümhuriyyətin süqutu, sovet dövrünün başlanması və mühacirət ədəbiyyatında əksi, təbliği formasında ciddi müqayisələr vardı. Sovet dövründə azərbaycanlıların soyqırımı mövzusu nəinki ədəbiyyatda, poeziyada da belə olduğu kimi oxuculara çatdırılmırdı. Sovet rejiminin sərt qanunları xalqın milli-

tarixi yaddaşının qismən, bəzən isə əsaslı şəkildə dəyişdirilməsinə, təbliğatın yanlış istiqamətdə aparılmasına xidmət edirdi. Ədəbiyyatın, mədəniyyətin vahid yaradıcılıq metoduna tabe etdirilməsi cəhdi azadfikirliliyin qarşısını büsbütün aldığından söz, poeziya, özünü ifadə ağır sınaqlarla üz üzə qalırdı. Bu isə sözün geniş mənasında reallıqdan uzaq, qismən saxta poeziyanın formalaşmasına meydan açırdı.

XX əsrin əvvəllərində (1900-1937) Məhəmməd Hadi, Abdulla Şaiq kimi milli azadlıq duyğularının alovlandırılması istiqamətində ciddi poetik örnəklər meydana gətirən ədiblərimizlə yanaşı, həmin dövr şairlərimizin əksəriyyətinin poetik yaradıcılığında XX əsrin əvvəllərində Azərbaycanlıların soyqırımı mövzusuna dair bədii örnəklərə rast gəlmək mümkündür. Soyqırım məsələsini öz poeziyalarında əks etdirən dövrünün tanınmış qələm sahiblərindən - Mirzə Ələkbər Sabirin "Müsəlman və erməni vətəndaşlarımıza (Beynəlmiləl)"[4], Əli bəy Hüseynzadənin "Sülhə dəvət"[5], Məhəmməd Hadinin "Şühədayi-hürriyyətimizin ərvahinə ithaf"[6], Əlabbas Müznibin "Fəryad"[7], Hacı Səlim Səyyahın "Mart ayı"[8], Abbas Səhhətin "Təxliyə yaxud qaçqın"[9], Cəfər Cabbarlının "Dur, ey xar olan millət!"[10], Cəmo bəy Cəbrayılbəylinin "Annamə"[11], Əhməd Cavadın "Şəhidlərə"[12], Əmin Abidin (Gültəkin) "Qanlı hədiyyə"[13], Məmo bəy Məmainin "Olsun"[14], şairə Ümmügülsüm Sadıqzadənin

---

4 Sabir, M.Ə. Müsəlman və erməni vətəndaşlarımıza // Həyat qəzeti. – 1905, – 1 iyul.

5 Hüseynzadə, Ə. Sülhə dəvət // Həyat qəzeti. – 1906, – 7 iyun.

6 Əbdülsəlimzadə, M.H. Şühədayi-hürriyyətimizin ərvahinə ithaf // Azərbaycan qəzeti. – 1919, – 31 mart. – №147

7 Anar. Min beş yüz ilin oğuz şeiri. Antologiya, I kitab / – Bakı: Azərbaycan nəşriyyatı, – 1999. – s.942

8 Səyyah H.S. Mart ayı. // Bəsirət qəzeti. – 1919, – 31 mart

9 Qardaş köməyi. – Bakı: – Nurlan, – 2002. – s.61

10 Cabbarlı, C. Mərsiyə. // İstiqlal qəzeti. – 1919, – 31 mart

11 Cəbrayılbəyli, C. Annamə. // – Bakı: Övraqi-nəfisə jurnalı, – 1919. – №3, – s. 9-10

12 Anar. Min beş yüz ilin oğuz şeiri. Antologiya, I kitab / – Bakı: Azərbaycan nəşriyyatı, – 1999, – s.942

13 Gültəkin, Ə.A. Buzlu cəhənnəm / tərt. ed. və ön sözün müəl. Ə.Şamil. – Bakı: Günəş, – 1999. – 96 s.

14 Məmai, M.B. Şeirlər // – Bakı: Elm və Təhsil, – 2016. – 210 s.

“Ey türk oğlu”[15], Abdulla (Əbdü) Əfəndizadənin “Ya ölüm, ya Türkiyə”[16], Əli Nişanın “20-ci əsrin qanlı bir yadigarı”[17] və digərlərinin şeirlərini nümunə göstərmək olar.

Cümhuriyyətin qısa bir zaman kəsiyində mövcud olması bəhs olunan dövrdə poeziyanın yüksəlişinə, onun təmsilçilərinin ədəbi məktəb yaratmasına geniş imkan yaratmamışdı. Lakin Cümhuriyyət poeziyasının məzmun və mahiyyətcə yenilikçi, novator düşüncəyə malik olması onun milli ədəbiyyat tarixində mövqeyini şərtləndirmişdir. Bu dövrdə milli ədəbiyyatın aydın siyasi düşüncəyə sahiblənməsi şeirdə yeni bir istiqamətin – istiqlal poeziyasının formalaşmasına təkan vermişdir. Cümhuriyyət dövrü poeziyası klassik ənənəyə söykənməklə yanaşı, çağdaş dünya ilə əlaqə və qarşılıqlı münasibətlərə diqqətin artırılması ilə də fəallıq nümayiş etdirirdi. Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu illərdə dövrün ictimai-bədii fikrində gələcəyə nikbin inam, fəallıq və əzmkarlıq ruhunun təbliği aparıcıdır.

Dissertasiyanın birinci fəslinin *“Erməni təcavüzündən zərər çəkmiş şairlərin poetik yaradıcılığında zorakılığın və qəddarlığın ifşası”* adlı ikinci paraqrafında XX əsrin əvvəllərində soyqırım hadisələrini öz gözləri ilə görmüş, baş vermiş prosesləri canı, qanı ilə yaşamış Məhəmməd Hadi, Əhməd Cavad, Abbas Səhhət və digər ədiblərimizin nəinki yaradıcılığı, həm də onların vətənpərvərlik, vətəni sevmək, vətəni qorumaq kimi xidmətləri diqqətə çatdırılmışdır.

Məhəmməd Hadi (1879-1920) həmin dövrdə baş verən hadisələr zamanı ədəbi yaradıcılığı ilə yanaşı, mühərrirlik fəaliyyəti ilə də məşğul olmuşdur.

*“Tatar süvari alayı cəbhə bölgəsinə beş eşalonla 1914-*cü *il, 11-13 sentyabr tarixlərində yollandı. Sentyabrın 12-də Qafqaz süvari diviziyasının komandiri Böyük knyaz Mixail Aleksandroviç Yelizavetpol qubernatoruna teleqram ünvanlayaraq alayın təşkilinə görə "şəhər əhalisi, qəza nümayəndələri və igidlərə” təşəkkürünü*

[15] Ümmügülsüm. Ey türk oğlu // Açıq söz qəzeti. – 1918, 20 fevral

[16] https://moderator.az/az/ekskluziv/598546/ya-lum-ya-turkiye-kitabi-nece-nesr-edildi-nesiman-yaqublunun-teqdimatinda/

[17] Qardaş köməyi. – Bakı: Nurlan, – 2002. – s.80

*bildirib. Alayın baş axundu vəzifəsinə görkəmli Azərbaycan şairi Məhəmməd Hadi təyin edildi"*[18].

XX əsrin əvvəllərində milli istiqlal şairi Əhməd Cavad da könüllü olaraq üstəğmən kimi (baş leytnant) "Qafqaz İslam Ordusu"nun sıralarına qatılmış və cəhbə boyu vuruşa-vuruşa gəlmiş, qolundan yara alsa da dəstədən ayrılmamışdır. "Qafqaz İslam Ordusu" Britaniya ordusuna qələbə çalan kimi Bakı şəhərinin 5 kilometrliyində yerləşən "Qurd qapısı"nda hər kəsə zəfər müjdəsi verən nəfis bir "Bismillah" şeirini yazmışdı[19].

Abbas Səhhət "Təxliyə yaxud qaçqın" adlı şeirini qələmə alandan bir qədər sonra xəstə atasını qırğının içindən çıxarmaq üçün kürəyinə alıb apararkən daşnak-bolşevik neo-faşist hərbi birləşmələri onları güllələbaran edib öldürmüşlər.

Hadi şairin 1918-ci ildə ermənilərin törətdikləri soyqırımın qurbanı olduğunu da dəqiqliyi ilə yazıya alır: *"Şirvanlı şair, Şirvan faciəsi əsasında başqaları kibi, şəhəri tərkə məcbur olmuş, yolda soyqırımlara faciə kimi yanaşırdı, soyulmuş, var-yoxu əlindən alınmışdı. Bir qaç yerlərdə sər-səriyanə dolanmış, ən sonda Gəncəyə nəqli-məkan etmişdir. Arada xəstə oldu. Zalım və biaman ölümün pəncəsindən rahayət olmayaraq tərki-həyat eylədi".*

Abbas Səhhətin soyqırım qurbanı olmasını əsaslandıran faktın daha tutarlı olmasını sübut edən digər mənbə 1918-ci ilin noyabrın 12-də yalnız bir sayı işıq üzü görən, "Qardaş qayğısı" qəzetində Binəva ləqəbli müəllifin çap etdirdiyi "Qanlı günlər" məqaləsidir. Məqalədə Şamaxıda baş verən hadisələr detalları ilə yanaşı, A.Səhhətin erməni bandalarının qurbanı olmasına da toxunulur[20].

1918-ci il mart ayının sonunda baş vermiş soyqırımlar nəticəsində Bakıda təşkil olunmuş ədəbi məclis "Məcməüş-şüəra"nın üzvləri məcburiyyət qarşısında qalıb Bakı kəndlərinə və bağlarına çəkilmişdilər. Ədəbi məclis üzvlərinin bir qismi elə Bakı kəndlərindən idi və şəhərdə yaşayan şairlər də onların evlərində

---

[18] https://ordu.az/az/news/140256/efsanevi--dikaya-diviziya-nin-azerbaycanli-suvari-alayi-arasdirma-fotolar/

[19] Anar. Min beş yüz ilin oğuz şeiri. Antologiya, I kitab / – Bakı: Azərbaycan nəşriyyatı, – 1999, – s.942

[20] Binəva. Qanlı günlər. // Qardaş qayğısı qəzeti. – 1918, – 12 noyabr, – s.4

sığınacaq tapmışdılar. Bununla belə, ədiblərimiz imkanları daxilində xalqın bədbəxtçiliyini, müsibətini, faciəsini əks etdirən şeirlər yazır, fəqət milli mətbu orqanları ermənilər tərəfindən yandırıldığı üçün həmin nümunələri dərc etdirməyi sonraya saxlayırdılar.

1915-ci ilin qışında çar ordusunun rus-erməni neofaşist hərbi birləşmələri Türkiyənin "Sarıqamış" vilayətindən, eyni zamanda Ərzurumdan, Karsdan, Ərdəhandan azyaşlı uşaqlardan tutmuş yaşlı insanlara qədər əsir aldıqları doxsan min türk qardaşlarımızın on minini Bakıya gətirmiş, Bakı şəhərindən 22 kilometr aralıda yerləşən Nargin adasında insanlığa sığmayan işgəncələr vermişlər. Həmin əsirlərin üç ilə yaxın müddətdə yeddi mini aclıqdan, susuzluqdan, yoluxucu xəstəliklərdən əziyyət çəkmiş, onlara verilən ağır işgəncələrdən olduqca acınacaqlı vəziyyətdə əsirlik həyatına düçar olmuşlar. Baş verən hadisələrin şahidi olmuş doktor Nəriman Nərimanov Bakı şəhərində Bakı Sovetinin ilk iclasında bu barədə ürəkyanğısı ilə məsələ qaldırmış, eyni zamanda özünün naşiri olduğu "Hümmət" qəzetində bu haqda böyük bir məqalə dərc etdirmişdir.

Ədiblərimiz XX əsrin əvvəllərində ictimai-siyasi proseslər zəminində baş vermiş soyqırım hadisələri və milli istiqlal ruhunu təkcə şeirlərində deyil, həm də vətənə xidmətlərində göstərmişlər. Ədiblərimizin yaşadıqları fiziki, mənəvi-psixoloji sarsıntıları buna əyani sübutdur.

Bu fəsildə əldə olunan əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır[21].

Dissertasiya işinin *"Soyqırımları mövzusunun bədii nəsr və dramaturgiyada təcəssümü"* adlanan ikinci fəslində XX əsrin əvvəlləri Azərbaycan nəsr və dramaturgiyasında problem mövzunun qoyuluşu, eləcə də erməni daşnaklarının azərbaycanlılara qarşı torpaqlarımızda törətdikləri soyqırımlar, vəhşiliklər, qətliamlar,

---

[21] Kərimova, S.A. XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımının poeziyada bədii əksi // – Bakı: AMEA Filologiya və sənətşünaslıq, – 2024. № 2, – s.110-115; Kərimova, S.A. Romantik ədəbiyyatda azərbaycanlıların soyqırımının bədii təcəssümü (*31 mart 1918-ci il*) // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, "Azərbaycan ədəbiyyatşünaslığı" jurnalı, – 2019. № 2, – s.137-141

faciələr real faktlar əsasında öz bədii əksini tapan əsərlər vasitəsilə tədqiqata cəlb edilmişdir.

Tədqiqat işinin bu fəslində XX əsrin əvvəllərində təlatümlü tarixi hadisələrin araşdırılaraq istər əsrin əvvəllərində tam real faktlar əsasında qələmə alınan bədii nümunələr, istər Sovet dövründə həmin mövzuda yazılan əsərlərin ideoloji baxımdan təhrif olunması, istərsə də Müstəqillik illərində arxiv materialları əsasında təhrif olunmuş əsərlərin bərpa olunaraq ictimaiyyətin diqqətinə çatdırılması nəzərdə tutulmuşdur.

*"Soyqırıma həsr edilmiş ilk nəsr əsərlərində tarixi gerçəklik və bədii həqiqət"* adlanan birinci paraqrafında XX əsrin əvvəllərində tarixi faktlar əsasında azərbaycanlıların soyqırımının nəsr əsərlərində təcəssümü öz əksini tapmışdır.

Dissertasiya işində görkəmli ədiblərimizdən Məmməd Səid Ordubadinin "Qanlı sənələr"[22], Mir Möhsün Nəvvabın "1905-1906-cı illərdə erməni-müsəlman davası"[23] əsərləri, Seyidağa Axundzadənin "Mart hadisəsi, 1918 yaxud Nuru paşa..."[24] əsəri, Mirzə Bala Məhəmmədzadənin "Əksinqilabçılar"[25], Seyid Hüseynin "Həzin bir xatirə"[26], "İsmailiyyə"[27], Cəfər Cabbarlının "Əhməd və Qumru"[28] hekayələri, Qurban Səidin "Əli və Nino"[29] romanı, Hüseyn Baykaranın "Azərbaycan İstiqlal Mübarizəsi Tarixi"[30] əsəri,

---

[22] Ordubadi, M.S. Qanlı sənələr (1905-1906-cı illərdə Qafqazda baş verən erməni-müsəlman davasının tarixi) / – Bakı: – Maarif, – 1991. – 141 s.

[23] Nəvvab M.M. 1905-1906-cı illərdə erməni-müsəlman davası. / – Bakı: Azərbaycan nəşriyyatı, – 1993. – 128 s.

[24] Rüstəmli, A. Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatda (mart, 1918) // Bizim əsr qəzeti. – 2003, – 15 aprel. – s.5

[25] Məhəmmədzadə, M.B. Əksinqilabçılar (hekayə) // – Tiflis: Gənclər yurdu jurnalı, – 1918. – 23 iyul

[26] Hüseyn, S. Həzin bir xatirə // Azərbaycan qəzeti. – 1919, – 20-26 avqust, – s.3

[27] Hüseyn, S. İsmailiyyə // İstiqlal qəzeti. – 1919, – 4 mart, – s.4

[28] Cabbarlı, C. Əsərləri: [Dörd cilddə] I cild. / tərt. ed. və ön söz müəl. Rüstəmli A. – Bakı: – Şərq-Qərb, – 2005. – 328 s.

[29] Qurban Səid. Əli və Nino // – Bakı: – Şərq-Qərb, – 2006. – 208 s.

[30] Baykara, H. Azərbaycan İstiqlal Mübarizəsi tarixi / – Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, – 1992. – 120 s.

Qılman İlkinin "Şimal küləyi"[31] və digər bədii əsərlər tədqiqata cəlb edilmişdir. Yuxarıda adları çəkilən əsərlər vasitəsilə ədiblərimiz XX əsrin əvvəllərində azərbaycanlılara qarşı soyqırımları hadisəsini bədii obrazların dili ilə çox canlı, təsirli, faciənin dəhşətlərini inandırıcı şəkildə əks etdirə bilmişlər. Soyqırıma həsr edilmiş bu ilk bədii əsərlərdə tarixi faktlarla bədii detallar arasında o qədər də güclü ziddiyyət hiss edilmir. Bu əsərlər oxucuda insan zorakılığına, qəddarlığına qarşı güclü nifrət hissi oyadır.

Azərbaycanda ilk tarixi romanlar müəllifi kimi tanınan Məmməd Səid Ordubadi (1872-1950) XX əsrin əvvəllərində istər nəsr, istərsə də mətbuatda çıxış edən ədiblərimizdən olmuşdur. Dövrün soyqırımları Məmməd Səid Ordubadinin (1872-1950) "Qanlı sənələr" (Qanlı illər) əsəri əsasında daha dolğun şəkildə, real faktlara əsaslanaraq baş vermiş hadisələri özündə ehtiva etmişdir.

Akademik İsa Həbibbəyli M.S.Ordubadi yaradıcılığı ilə digər ölkələrin böyük ədibləri arasında müqayisələr apararkən onun əsərlərinin ədəbi meyarlardan daha çox ideoloji mahiyyətini diqqətə çatdıraraq, görkəmli Azərbaycan yazıçısını bəzi cəhətlərinə görə dahi rus ədibi Lev Nikolayeviç Tolstoyla müqayisə edir. Akademik qeydlərində bildirir: *"Fikrimizcə, bir çox cəhətdən görkəmli Azərbaycan yazıçısı Məmməd Səid Ordubadini bəzi cəhətlərinə görə dahi rus ədibi Lev Nikolayeviç Tolstoyla müqayisə etmək olar. Bizə görə Məmməd Səid Ordubadi Azərbaycan ədəbiyyatının Tolstoyudur"*. Akademik İsa Həbibbəyli Məmməd Səid Ordubadinin Lev Tolstoyla müqayisəsində istinad etmək, təsirlənmək motivlərinin nəzərə çarpmadığını vurğulayaraq, müqayisədə aşağıdakıları nəzərdə tutduğunu diqqətə çatdırırdı: *"Böyük Lev Tolstoy rus ədəbiyyatının tarixində malik olduğu səviyyə etibarilə hansı yeri tutursa, Məmməd Səid Ordubadi də Azərbaycan ədəbiyyatında həmin mövqeyə sahibdir"*[32].

Tarixi hadisələrin bədii əsərlərdə obyektiv təcəssüm tapması oxucunu milli vətənpərvərlik hissinə kökləyir, ayıq-sayıqlığa çağırır,

---

[31] İlkin, Q. Seçilmiş əsərləri: [İki cilddə] I cild. / – Bakı: Avrasiya press, – 2006. – 232 s.

[32] Ordubadi, M.S. Həyatım və mühitim // – Naxçıvan: Əcəmi Nəşriyyat-Poliqrafiya Birliyi, – 2012. – 336 s.

millətsevərlilik ruhunu ovxalayır.

Fəslin *"Dram əsərlərində soyqırımların real mənzərəsi: tiplər və prototiplər"* adlı ikinci paraqrafında XX əsrin əvvəllərində erməni-müsəlman münaqişəsinə dair tarixi gerçəklikləri əks etdirən, milli münaqişələri, insan münasibətlərini və cəmiyyətdəki sosial-siyasi problemlərin dramatik əsərlərə daşınması və bu mövzuda yazılmış dram əsərlərinin mahiyyətinin təhlili diqqətə çatdırılır.

Görkəmli ədiblərimiz Cəfər Cabbarlının "1905-ci ildə"[33], "Bakı müharibəsi"[34], Mirzə Bala Məhəmmədzadənin "Bakı uğrunda müharibə"[35], Cəlil Məmmədquluzadənin "Kamança"[36], Hüseyn Cavidin "İblis"[37] və digər dramaturqların pyeslərində 1905-06-cı illər və 1918-ci ilin Mart hadisələri zamanı azərbaycanlılara qarşı erməni daşnak hərbi hissələrinin törətdikləri qatı cinayətlər, soyqırımlar bədii dilin təsir gücündən istifadə edilərək geniş mənzərəsi yaradılmışdır. Tarixi faciələrdən, soyqırımlarından bəhs edən ən böyük sənət əsərləri gerçək faktlar əsasında yazılmış elmi kitablar qədər dəyərli və əhəmiyyətlidir.

Cəfər Cabbarlı XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımını ədəbiyyatın müxtəlif janlarında istər poeziya, istər nəsr, istərsə də dramaturgiyada özünəməxsus şəkildə ifadə etməyə çalışmışdır. Həmin əsərlər əsrin əvvəlinə və Sovet dövrünə təsadüf etdiyi üçün ifadə olunma tərzində və mətnaltı təqdimatında da fərq vardır. Onun "1905-ci ildə" əsərinin yazılma tarixi Sovet dövrünə təsadüf etdiyinə görə, dramaturq əsərin əsas məğzini "xaqlar dostluğu" prinsipi üzərində qurmuşdur.

Dram əsərləri digər ədəbi janrlarla müqayisədə müəllif düşüncələrini geniş tamaşaçı auditoriyasına canlı çatdırması üçün böyük yaradıcılıq imkanlarına malik sənət sahəsidir.

---

[33] Cabbarlı, C. Əsərləri: [Dörd cilddə] I cild. / – tərt/. ed. və ön söz müəl. Rüstəmli A. – Bakı: Şərq-Qərb, – 2005. – 328 s.

[34] Cabbarlı, C. Bakı müharibəsi // Bəsirət qəzeti. – 1919, – 13 sentyabr. – №246

[35] Məhəmmədzadə, M.B. Seçilmiş əsərləri / – Bakı: Elm və təhsil, – 2023. – 612 s.

[36] Məmmədquluzadə, C. Biblioqrafiya / Tərt. ed. M.Vəliyeva, L.Şirinova, H.Manafova; elmi red. K.Tahirov; ön söz. müəl. İ.Həbibbəyli; red. M.Cəfərova, – Bakı: – 2019. – 760 s.

[37] Cavid, H. Əsərləri: [Beş cilddə] III cild. / Tərt. ed. Turan Cavid; red. T. Kərimli, – Bakı: – Lider, – 2005. – 304 s.

Dramaturqlarımız milli faciələrimizi ədəbiyyata, sənətə gətirərkən janrın təsir və təsvir vasitələrindən faydalanaraq xüsusilə gəncləri tariximizlə tanış etmək missiyasını öz üzərlərinə götürürlər.

Bu fəsildə əldə olunan əsas elmi nəticələr aşağıdakı məqalələrdə öz əksini tapmışdır[38].

Tədqiqat işinin sonuncu, üçüncü fəsli "Azərbaycan bədii publisistikasında soyqırımlara elmi-ictimai münasibət" adlanır.

Azərbaycan milli mətbuatı XIX əsrin ikinci yarısından etibarən formalaşmağa və cəmiyyətin maariflənməsində mühüm rol oynamağa başlamışdır. Bu dövr milli oyanış prosesinin başlanğıcı olmaqla yanaşı, ictimai fikrin formalaşmasında və milli kimliyin təşəkkülündə mətbuatın əsas vasitəyə çevrildiyi mərhələdir.

Dissertasiya işinin üçüncü fəslinin birinci paraqrafı *"Milli istiqlal ideyalarının gerçəkləşməsinə soyqırımların təsiri və əks-təsiri (Milli mətbuat materialları əsasında. 1918-1920)"* adlanır.

XIX əsrin sonu XX əsrin əvvəllərində ermənilərin azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, soyqırım törətməsini arxiv sənədləri ilə yanaşı həmin dövrün mətbuatında dərc edilmiş

---

[38] Kərimova, S.A. Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatda // Tarixi ipək yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri, – Naxçıvan: Beynəlxalq "İpək yolu" konfransın materialları, – 16-17 oktyabr, – 2015, – s.138-139; Kərimova, S.A. 31 mart 1918-ci il azərbaycanlıların soyqırımı haqqında ilk bədii nümunələr // Nevruz zirvesi. I. Uluslararası Bahtiyar Vahapzade, Azerbaycan kültürü, tarihi ve edebiyatı sempozyumu, – Antalya: – 20-23 mart, – 2018, – s.12-13; Kərimova, S.A. Mir Möhsün Nəvvabın (1833-1919) yaradıcılığında soyqırım məsələsi // Baku, Baku State University: Azerbaijani Oriental Studies in the Context of East-West Scientific-Cultural & Socio-Political Dialogue. International conference. Dedicated to the 100th anniversary of the establishment of the Faculty of Oriental Studies of Baku State University. – Bakı: 14-15 december, – 2022, – s.297-298; Kərimova, S.A. Dövrün soyqırımı Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsəri əsasında // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşünaslığı, – 2023. № 1, – s.102-107; Kərimova, S.A. XX əsrin əvvəllərində Cənubi Qafqazda azərbaycanlılara qarşı törədilmiş soyqırımı mövzusu ədəbi şəxsiyyətlərin yaradıcılığında // Cənubi Qafqazda dövlətlərarası münasibətlərdə şəxsiyyət amili: tarixdən günümüzə, – Bakı: AMEA Qafqazşünaslıq İnstitutu, Respublika elmi konfransı, – 06 noyabr, – 2024, – s.132-133

məqalələr də təsdiq edir. Bütün bunlar erməni vandalizminin ifşa olunması baxımından tarixi olduğu qədər də siyasi və hüquqi əhəmiyyət kəsb edən səbəblərdəndir.

Bildiyimiz kimi, Azərbaycanda milli mətbuatın əsası Həsən bəy Zərdabinin redaktorluğu ilə 1875-ci ilin 22 iyulunda nəşrə başlayan "Əkinçi" qəzeti ilə qoyulmuşdur. Lakin müsəlmanlara qarşı olan haqsızlıqlar səbəbindən iki ildən sonra qəzet öz fəaliyyətini dayandırdı.

XIX əsrin axırlarından isə maarifpərvər insanlarımız əvvəlcə rus dilində, sonra, yəni 1906-cı ildən etibarən heyrətamiz bir sıçrayışla "İttifaq", "Tərəqqi", "Səda", Sədayi-həqq", "Təzə həyat", "Hümmət", "Kaspi", "Füyuzat", "Yeni Füyuzat", "Arı", "Babayi-Əmir", "Tuti", "Məzəli", "Kəlniyyət", "Şəlalə", "İrşad", "İttifaq", "Zənbur", "İqbal", Həyat", "Təkamül" və s. mətbu orqanlarını yaratdılar. Yazıçı Seyid Hüseyn mətbuatın Azərbaycan xalqının həyatındakı mühüm rolunu yüksək dəyərləndirərək yazırdı: *"Mətbuat hər millətə, hər qövmə nəfs verər ki, o millətdə eşidən qulaq, dərk edən baş və yaxşını yamandan təmiz verən əql və fikir vermiş olsun. Mətbuat millətin dili məqamındadır"*[39].

XX əsrin əvvəllərində "Azərbaycan", "İstiqlal", "Bəsirət", "Açıq söz", "Gənclər yurdu" və digər mətbuat orqanlarında Mart soyqırımı ilə bağlı bir sıra publisistik məqalələr, hekayələr, şeirlər dərc edilmişdir. 1919-1920-ci illərdə nəşr edilən demokratik mətbuat orqanı olan "İstiqlal" qəzetinin mart buraxılışları bütövlükdə 31 Mart soyqırımı hadisələrinə həsr edilmişdir. Həmin buraxılışlarda, əsasən Məhəmməd Əmin Rəsulzadə, Ceyhun Hacıbəyli, Mirzə Bala Məhəmmədzadə, Cəfər Cabbarlı, İbrahim Xəlil, Hacı Səlim Səyyah və digər ictimai xadim və ədəbiyyatşünasların soyqırım hadisələri ilə bağlı məqalələri dərc edilmişdi. Həmin dövrdə "Azərbaycan", "İstiqlal", "Hümmət" kimi mətbu orqanlarla yanaşı, 1918-ci ildə Tiflisdə nəşr olunan "Qardaş qayğısı" qəzetində çap olunmuş məqalələr də mart soyqırımına qarşı etirazın bariz nümunəsi idi.

1905-1906-cı illərdə baş vermiş erməni-müsəlman

---

[39] Hüseyn, S. Tənqid və tənqidçilərimiz, yaxud Əlif-Leyla // – Bakı: Şəhabi-saqib jurnalı, – 1911. – 19 mart, № 8, – s.5

qarşıdurmasında müsəlmanların zəfər çaldığını görən ermənilərin dəstəyi ilə Bakıda "Bakinski raboçi" qəzeti çıxmağa başladı. Qəzetin ilk redaktorları A.Çaparidze, V.Niokin və Radus Zenkoviç idi. Elə həmin günlərdə erməni bolşeviki L.Kununyantsın rəhbərliyi ilə "Banvori dzayn" ("Fəhlə səsi") qəzeti fəaliyyətə başladı. Bu qəzetlər guya fəhlələr arasında beynəlmiləl tərbiyə işində, kütlələri çarizmə və yerli burjuaziyaya qarşı səfərbər edirdilər. Lakin əslində onların, xüsusilə də Kununyantsın məqsədi tamam başqa idi. Bakını və bütün Azərbaycanı tamamilə müsəlman-türk əhalidən təmizləyib, bu ərazidə özlərinə məxsus bir ölkə yaratmaq istəyi idi. O dövrdə rus dilində çıxan bütün bolşevik qəzetləri Şaumyanın senzurası ilə dərc olunurdu. Azərbaycan dilində çıxan "Hümmət", "Dəvət-qoç", eləcə də "Бакински рабочи", "Бакинские вести", "Бакински пролетар", "Гудок", "Воля", "Наша жизн", "Təkamül", "Yoldaş", "Bakı həyatı" və s. mətbu orqanları da bilavasitə Şaumyanın nəzarəti altında idi.

1918-ci il mart ayının sonundan etibarən Şaumyan Bakıdakı bütün milli mətbuatları bağlatdırmışdı, belə ki, daşnaklar hətta türk-müsəlmanlara aid olan bir neçə nəşriyyatı və mətbəəni yandırmışdılar. Lakin Qafqaz İslam Ordusu Bakını işğaldan azad etdikdən sonra "İstiqlal", "Azərbaycan", "Övraqi-nəfisə", "Qurtuluş", "Gənclər yurdu", "Şeypur", "Zənbur", "Mədəniyyət" və s. kimi milli mətbu orqanları fəaliyyətə başladılar. Bu milli mətbu orqanları əsasən publisistik fəaliyyət göstərərək maarifləndirici rol oynayır, gəncləri, yeniyetmələri elm-təhsil almağa, savadlanmağa çağırır, eyni zamanda baş vermiş soyqırımların, qırğınların, siyasi-iqtisadi hadisələrin, qarşıdurmaların məzmun-mündəricəsini xalqa çatdırmaq və onları ayıq sayıq olması üçün məqalələr dərc edirdilər.

Məhəmməd Əmin Rəsulzadə 1918-ci il mart qırğınının bilavasitə Bakı Komissarları Sovetinin baş komissarı olmasından sui-istifadə edərək Azərbaycan xalqına qarşı törədilmiş soyqırımların, qanlı faciələrin başında Şaumyanın durduğunu və buna cürbəcür vasitələrlə çox yaxşı hazırlaşdığını dəqiq-dürüst ifadələrlə, eyni zamanda təkzibolunmaz faktlarla bəyan edərək yazırdı: "*...Gözləri önündə söz sorulmadan gəzən Erməni Alayı döyüşçülərini görən Müsəlman ulusu Müsəlman Alayının*

*yaradılması üçün Tiflisdən göndərilən subayların "Sovet" milislərincə yoxlanılmasını görüncə, doğal olaraq qızışırdı. Belə gündən-günə çoxalan yandırım (mevadi ehraqiyə) sonucda bir araqarışdırıcı qığılcım ilə tutuşdu. 1918-ci ilin martın 17-dən 21-nə kimi (Yeni stillə 30 mart-2 aprel 1918-ci il) sürən qanlı Mart olaylarına nədən oldu"*[40].

Azərbaycanlı bolşeviklər Şaumyana sinfi mübarizə aparan qətiyyətli bir bolşevik kimi baxırdılar və onun bu qırğınların başında dayandığına heç cürə inanmaq istəmirdilər. Lakin mart soyqırımında yüzlərlə müsəlman bolşevikin öldürüldüyünü görəndən sonra Şaumyanın bolşevik qiyafəsinə girmiş bir şeytan olduğunu dərk elədilər. Belə ki, Nəriman Nərimanovun redaktorluğu ilə nəşr edilən "Hümmət" qəzeti aprelin 4-də yazırdı: *"Sülh gününün sabahı Çornıqorodda gömrük həyatinə getdim, öldürülənləri gördüm. Deyə bilərəm ki, bunlar hamısı fəhlə sinfidir. Təzəpirə gəldikdə yenə də eyni mənzərə. Qəbirstana getdim və üstlərindəki neftli libasları ilə basdırılmaq üçün yan-yana düzülmüş məzlumların yenə də bu fəqirlər olduğunu gördüm"*[41].

1918-ci ildə Şaumyanın başçılığı ilə Bakının türk-müsəlman əhalisinə qarşı misli görünməmiş qətliam başlayan ərəfədə daşnak-bolşevik neofaşist hərbi birləşmələri Azərbaycanın milli mətbu orqanları "Kaspi" və "Açıq söz" qəzetlərinin yerləşdiyi binaları, eyni zamanda Orucov qardaşlarının elektrik mətbəəsi yerləşən binanı benzin vurub yandırdılar. Bu ərəfədə Şaumyanın fitvası ilə "neytral" mövqe tutan rusdilli qəzetlər də bağlanıldı. Lakin Bakıda və Azərbaycanın digər bölgələrində xalqımıza qarşı dəhşətli soyqırım törədiləndən bir neçə ay sonra Tiflisdə Türk Gənclər Təşkilatı tərəfindən 1918-ci ilin 12 noyabrında yalnız bir nüsxəsi işıq üzü görən qəzet "Qardaş qayğısı" adı ilə "heyəti-təhririyyə" tərəfindən nəşr olunub. Qəzet həm Azərbaycan, həm də rus dillərində çıxdığı üçün, rus dilində "Миръ праху невинныхъ жертвъ" (Günahsız qurbanların yandırılmış küllərinə salam olsun!) adı ilə dərc edilmişdi. Tədqiqatçı Akif Aşırlı bu barədə yazır: *"Qəzetin*

[40] Rəsulzadə, M.Ə. Azərbaycan Cümhuriyyəti / çap edən; Yadigar Türkel, – Bakı: – 2015. – s.46

[41] Nərimanov, N. // Hümmət qəzeti. – 1918, – 4 aprel.

*manşetində "Rahat uyuyunuz, ey nahaq qurbanlar, rəhmətlər sizə" fikri ilə yanaşı, "Azərbaycan istiqlaliyyəti uğrunda qırılmış qurbanları türk gəncləri hörmət ilə xatırlar" ifadəsi də böyük hərflərlə əks olunub. Qiyməti 2 manat olan qəzetin satışından yığılan vəsaitin 1918-ci ildə Bakı və Şamaxıda "zərərdidə olanlara sərf olunacağı" xəbəri 2-ci səhifənin başlıq hissəsindən bəlli olur"*[42].

1918-ci il mart hadisələrini mühacirətdə olan qabaqcıl ziyalılarımız daha dəqiq-dürüst şərh edirdilər. Məsələn, Mirzəbala Məhəmmədzadə (1898-1959) Berlində Məhəmməd Əmin Rəsulzadənin redaktorluğu ilə dərc edilən "Qurtuluş" jurnalında Şaumyanın Rusiya cəbhələrindən qayıdan ermənilərdən və ruslardan ibarət 25 mindən ibarət əsgərindən, Xəzər dənizindəki bolşeviklərdən ibarət rus hərbi donanmasından, həm də Bakıdakı neft mədənlərində çalışan erməni və ruslardan ibarət çoxsaylı fəhlələrdən ibarət böyük daşnak-bolşevik neofaşist hərbi dəstələr toplayaraq Bakı şəhərində müsəlman əhaliyə qarşı qətliam törədib şəhəri qana boyamağını ətraflı şəkildə göz önünə gətirərək yazırdı: *"...Şaumyan bu qüvvələrə arxalanaraq martın 31-də qırğına başladı və üç gecə davam edən, 15 min silahsız və günahsız türkün ölümü ilə nəticələnən bu qırğın zamanı Bakı havadan, dənizdən və qurudan bombardman edildi, məscidlər dağıdıldı, maarif və mədəniyyət müəssisələri, mətbəə, teatr, məktəb, kitabxana və s. od vurularaq yandırıldı"* [43].

Həmin dövrdə fəaliyyət göstərən mətbuat orqanlarının əksəriyyəti Hacı Zeynalabdin Tağıyevin maliyyə vəsaiti ilə nəşr olunurdu.

Üçüncü fəslin *"Azərbaycan Xalq Cümhuriyyətinin soyqırım ilə bağlı fəaliyyəti bədii-publisistik düşüncədə"* adlı sonuncu paraqrafında Azərbaycan Xalq Cümhuriyyəti dövründə azərbaycanlıların soyqırımı ilə bağlı ciddi dövlət tədbirlərinin keçirilməsi və qərarların qəbul edilməsi, həmin dövr mətbuatında

---

[42] Aşırlı, A. 31 mart soyqırımı: 1918-1920-ci illər mətbuatında / – Bakı: Elm və təhsil, – 2011. – s.100

[43] Mehmetzade, M.B. Milli Azərbaycan herekatı // – Berlin: Qurtuluş jurnalı, – 1938. – s.7

soyqırım hadisələrinin təbliğatına geniş yer verilməsi, gələcəkdə xalqımızın başına birdə bu kimi hadisələrin gəlməməsi üçün nələrin edilməsinin vacibliyi ilə bağlı məsələlər diqqətə çatdırılır.

Məhəmməd Əmin Rəsulzadə "Numuneyi imtisali bir gün" adlı məqaləsində 1918-ci il mart qırğınının matəm günü elan olunması haqqında öz fikrini bildirərək qeyd edir ki, həmin günün matəm elan olunmasa gələcək nəsillər bu barədə heç nə bilməyəcək və bu da öz növbəsində daşnak və bolşevik neofaşist hərbi birləşmələrinin Azərbaycan xalqına qarşı törətdikləri soyqırımların örtülüb-basdırılmasına gətirib çıxaracaqdır. O, erməni emissarlardan təşkil olunmuş "Sentrakaspi hökuməti diktaturası" tərəfindən qətlə yetirilən 26 komissarın ölümü ilə bağlı Bakı fəhlələrinin (təbii ki, qeyri azərbaycanlı fəhlələrin) matəm saxlamasını xatırladaraq, 1918-ci ildə mart ayının sonu, aprel ayının əvvəllərində 10 minlərlə günahsız öldürülmüş insana matəm saxlamağın zəruriliyini qeyd edərək yazırdı: "*...Nəhayət, müsəlman əmələlərin qəti qərarları təsirindən olmalıdır ki, "raboçiy konfrans" idarəsi ayın 31-ə deyil, 30-nu matəm günü və bu münasibətlə mitinqlər tərtibini elan elədi. Fəqət, nə mitinqlərə gələn oldu, nə də mitinq çağıranlar özləri gəldi. Onlar bildikləri kibi mart faciyəsinə gözəyarı baka bilərlərdi"*[44].

Məhəmməd Əmin Rəsulzadə özünün nəşr etdirdiyi "Açıq söz" qəzetinin bir neçə sayında erməni vandalizmi, Andronikin əxlaqsızlığı, qəddarlığı haqqında təkrar-təkrar yazılar yazdı və bir neçə dilə tərcümə elətdirib bütün Avropanı bu haqda xəbərdar elədi. Rəsulzadə qəzetdə bu haqda dərc etdirdiyi ilk məqaləsində yazırdı: *"Osmanlı ordusunda illərlə təlim keçmiş Andronik Ozanyan bir müddət əvvəl tabeliyində olduğu erməni əsgərlərlə birlikdə ordudan qaçaraq Anadolu köylərinə, eyni zamanda Naxçıvan, Zəngəzur və başqa müsəlmanlar yaşayan kəndlərə basqın edərək otuz beş mindən çox günahsız və silahsız insanları südəmər uşaqlardan, hamilə qadınlardan tutmuş xəstələrə, yaşı ötmüş qocalara qədər insanlığa sığmayan üsullarla qətlə yetirmişdir"*[45].

Azərbaycan Xalq Cümhuriyyətinin fəal üzvlərindən olan,

---

[44] Rəsulzadə, M.Ə. Numuneyi imtisali bir gün // Azərbaycan qəzeti. – 1919, – 2 aprel. – № 148

[45] Rəsulzadə M.Ə. // Açıq söz qəzeti. – 1915, – №16

yalnız Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra Türkiyəyə mühacirət etmiş Mirzə Bala Məhəmmədzadə “Azəri türkləri” məqaləsində Azərbaycan xalqının məşəqqətlər içində necə ağır günlər yaşadığını, lakin heç bir günahı olmadan vəhşicəsinə qətlə yetirilən on minlərlə insanımızın sovetlər birliyi tərəfindən “əksinqilabçı”, Azərbaycan xalqını qanına qəltan elətdirən Şaumyanın və ona kölәlik eləyənlərin isə inqilabçı adlandırılmasının tarixin bağışlanmaz xətası olduğunu bəyan edirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Üzeyir bəy Hacıbəylinin redaktorluğu ilə nəşr olanan “Azərbaycan” qəzetinin rus dilində nəşrinin redaktoru Xəlil İbrahim (1892-1938) “18-31 mart” adlı məqaləsində daşnak-bolşevik neofaşist hərbi birləşmələrinin Azərbaycan xalqına qarşı törətdikləri insanlığa sığmayan qətliamlarının bir səbəbkarını da Azərbaycan xalqının özündə, riyakar ermənilərə və bol-bol vədlər verən saxtakar bolşeviklərə inanmağında görürdü. Xəlil İbrahim bununla belə, Azərbaycan xalqını bir daha belə müsibətlərlə qarşılaşmasın deyə bir araya gəlməyə, səfərbər olmağa, bütün umu-küsüləri bir kənara atıb vətəni, torpağı, xalqı, bayrağı qorumaqdan ötrü lazım gələn anda cihada qalxmağa səsləyirdi. O yazırdı: *“...Həm də o mənayəni cəmaətimizin bir qismi məsqə geymiş canilərə inanaraq onlarla sosyalist kibi rəftarda bulunmaqla özlərini aldatmış oldı: nə o mənayə ki, cəmaətimizin bir qismi məhzi firqəbazlıq xatirinə özünü üzə çıxarmaq və şərəfi-müqabili nəzərdən salmaq niyyətilə xalqı yoldan çıxardı”*[46].

Ermənilər Türkiyədə və Azərbaycanda törətdikləri bütün soyqırımları “Böyük Ermənistan” yaratmaq niyyəti ilə törətmişdilər. Ömər Faiq Nemanzadə ermənilərin bu məkrli niyyətini “İrşad” qəzetində “Bir cavan” imzasıyla dərc etdirdiyi “Nə etməliyik?” məqaləsində şərh edərək yazırdı: *“Ermənilər hər nə cür olsa özləri üçün mütləq bir “Ermənistan” vücudə gətirmək niyyət qəbisindədirlər. Və bu niyyətlərini hüsula gətirmək üçün də mütləq bizi İrəvan, Qarabağ və Kars səmtlərindən çıxartmaq məcburiyyətindədirlər. Bilməliyik ki, ermənilər bu niyyətlərinə*

[46] İbrahim, X. 18-31 mart // Azərbaycan qəzeti. – 1919, – 31 mart. – №147

*çatmaq üçün hər cür fədakarlığı gözə almışlar..."*[47].

1918-ci ilin Mart hadisələrinə ilk dəfə olaraq Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qiymət verilməyə cəhd göstərilmişdir. AXC 1919 və 1920-ci illərdə martın 31-ni milli hüzn günü kimi qeyd etmişdir. Bu hadisələr sənədli şəkildə, həmin dövrün mətbuat materiallarında, ziyan çəkmiş şəxslərin və şahidlərin hekayətlərində öz əksini tapmışdı.

Tədqiqat işinin sonuncu fəslində əldə edilən mühüm nəticələr aşağıdakı nəşrlərdə əksini tapmışdır[48].

Dissertasiya işinin **Nəticə** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

- XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımı ilə bağlı sistemli işin aparılmasına ümummilli lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 26 mart 1998-ci ildə imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" sərəncamdan sonra başlandı. Bu sərəncama əsasən 31 mart "Azərbaycanlıların Soyqırımı Günü" elan edilmişdir. Eyniadlı fərmandan sonra XX əsrdə Qafqaz regionunun və Azərbaycan tarixinin araşdırılması üçün geniş imkanlar yarandı. Qeyd edək ki, soyqırımla bağlı bu mühüm dövlət sənədlərinin qəbul edilməsindən sonra 31 Mart soyqırımı haqqında məqalələr, kitabların yazılması, tədqiqat işləri, elmi araşdırmaların aparılması, bu mövzuda konfransların keçirilməsi müasir dövrdə də mövzunun aktuallığını bir daha meydana qoydu.

- Sovetlər dönəmi ədəbiyyatşünaslığının tələbləri

---

[47] Bir cavan. Nə etməliyik? // İrşad qəzeti. – 1906, – 4 avqust. – №183

[48] Kərimova, S.A. 1918-ci il 31 mart soyqırımı milli mətbuatımızın gözü ilə // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşünaslığı, – 2024. № 2, – s.92-96; Karimova, S.A. The genocide of march 31, 1918 in scientific research (During the years of Independence) // – Warscawa, Polska: Miçdzynarodowe czasopismo naukowe, Colloquium-journal, – 2024. № 34 (227), – p.62-64; Kerimova, S.A. Mehmet Emin Resulzadenin sanatsal gazete yazılarında soykırım meselesi // Söylem 4. Uluslararası Filoloji Sempozyumu, – İstanbul: – 10-12 Nisan, – 2025, – s.808-816; Kərimova, S.A. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırımların müasir tədqiqinin hüquqi əsasları // Borçalı: BUTA ədəbi-bədii, elmi-publisistik məcmuə, – 2021. № 01, – s.432-438

tədqiqatçılara daşnak-bolşevik neofaşist hərbi birləşmələrinin törətdiyi cinayətlər haqqında qələmə alınmış bədii nümunələri obyektiv elmi əsaslarla öyrənməyə imkan vermirdi. Onlar Azərbaycan ədəbiyyatının bir qolunu təşkil edən bu mövzulu bədii nümunələri zərərli ideoloji düşüncə təzahürü, mürtəce ədəbiyyat və millətçilik kimi təqdim edirdilər. Lakin müstəqillik dövründə Ermənistan-Azərbaycan münasibətləri, soyqırım və milli ideologiya mövzusunda yazılmış əsərlər, müqayisələr ideoloji mahiyyət daşımaqla yanaşı, həm də elmi-tədqiqat səviyyəsində obyektiv mənzərəsini yaratdı və mövcud tarixi faktlara əsaslanan elmi əsaslarla daha dərindən araşdırılmağa başlanıldı.

- Bu dissertasiya işində həmin dövrdə Azərbaycan xalqına qarşı baş vermiş soyqırımlar haqqında qələmə alınan nümunələr vahid bir sistem əsasında tədqiqata cəlb edilmiş və araşdırmalar aparılmışdır.
- Tədqiqat işində XX əsrin əvvəllərində və sonrakı dövrlərdə 1905-06-cı illər və 1918-ci il mart soyqırımları ilə bağlı yaranmış bədii əsərlərin, eyni zamanda həmin dövrdə dərc olunan məqalələrin, şeirlərin, felyetonların ədəbiyyat və mətbuat tarixindəki mövqeyi, təşəkkül və inkişaf xüsusiyyətləri göstərilmiş və baş vermiş hadisələrin mahiyyətinin açılması istiqamətində müəyyən addımlar atılmışdır.
- Dissertasiya işində təkcə XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımına dair bədii nümunələr tədqiq edilməmiş, həmçinin həmin dövrün ictimai-siyasi-mədəni mənzərəsi haqqında ciddi təsəvvür yaranmışdır.
- Tədqiqat işində həmçinin Milli İstiqlal ideyalarının təbliği, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasına gedən yolun Mart soyqırımından keçməsi, eləcə də həmin dövr ədiblərimizin yaradıcılıqlarının milli azadlıq şüarı altında özlərini səfərbər etmələri haqqında məlumatlar öz əksini tapmışdır.
- Dissertasiyada əsasən həmin dövr şair və yazıçılarının yaradıcılığı tədqiq edilmiş, həmçinin sovetlər dönəmi, müstəqillik illərində də XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımına həsr edilmiş bədii nümunələr də tədqiqata cəlb edilmiş və müqayisələr aparılmışdır.

- Təhlillər göstərir ki, ermənilərin Azərbaycan xalqına qarşı həyata keçirdiyi kütləvi qırğın siyasətinin bədii və tarixi materialların elmi müstəvidə araşdırılması kifayət qədər ciddi məsələdir. 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın azğın ermənilərdən tamamilə təmizləndiyi, Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etdiyi bir dövrdə erməni faşizminin həm də dəqiq faktlar əsasında elmi tədqiqatlar çərçivəsində davamlı şəkildə darmadağın edilməsi vacib və gərəklidir. Bu baxımdan tədqiq olunan "XX əsrin əvvəllərində Azərbaycan bədii ədəbiyyatı və publisistikasında soyqırım problemi" mövzusunda dissertasiya işinin aktuallığı diqqətə çatdırılmışdır.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı elmi məqalə və konfrans materiallarında öz əksini tapmışdır:**

1. Kərimova, S.A. Azərbaycanlıların soyqırımı bədii ədəbiyyatda // Tarixi ipək yolu və Naxçıvanın iqtisadi-mədəni əlaqələrinin inkişafı məsələləri, – Naxçıvan: Beynəlxalq "İpək yolu" konfransın materialları, – 16-17 oktyabr, – 2015, – s.138-139
2. Kərimova, S.A. 31 mart 1918-ci il azərbaycanlıların soyqırımı haqqında ilk bədii nümunələr // Nevruz zirvesi. I. Uluslararası Bahtiyar Vahapzade, Azerbaycan kültürü, tarihi ve edebiyatı sempozyumu, – Antalya: – 20-23 mart, – 2018, – s.12-13
3. Kərimova, S.A. Romantik ədəbiyyatda azərbaycanlıların soyqırımının bədii təcəssümü (*31 mart 1918-ci il*) // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, "Azərbaycan ədəbiyyatşünaslığı" jurnalı, – 2019. № 2, – s.137-141
4. Kərimova, S.A. XX əsrin əvvəllərində azərbaycanlılara qarşı törədilmiş soyqırımların müasir tədqiqinin hüquqi əsasları // – Borçalı: BUTA ədəbi-bədii, elmi-publisistik məcmuə, – 2021. № 01, – s.432-438
5. Kərimova, S.A. Mir Möhsün Nəvvabın (1833-1919) yaradıcılığında soyqırım məsələsi // Baku State University: Azerbaijani Oriental Studies in the Context of East-West Scientific-Cultural & Socio-Political Dialogue. International conference. Dedicated to the 100th anniversary of the establishment of the Faculty of Oriental Studies of Baku State University. – Baku: – 14-15 december, – 2022, – s.297-298
6. Kərimova, S.A. Dövrün soyqırımı Məmməd Səid Ordubadinin "Qanlı sənələr" əsəri əsasında // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşünaslığı, – 2023. № 1, – s.102-107
7. Kərimova, S.A. XX əsrin əvvəllərində azərbaycanlıların soyqırımının poeziyada bədii əksi // – Bakı: AMEA Filologiya və sənətşünaslıq, – 2024. № 2, – s.110-115
8. Kərimova, S.A. XX əsrin əvvəllərində Cənubi Qafqazda azərbaycanlılara qarşı törədilmiş soyqırımı mövzusu ədəbi

şəxsiyyətlərin yaradıcılığında // Cənubi Qafqazda dövlətlərarası münasibətlərdə şəxsiyyət amili: tarixdən günümüzə, – Bakı: – AMEA Qafqazşünaslıq İnstitutu, Respublika elmi konfransı, – 06 noyabr, – 2024, – s.132-133

9. Kərimova, S.A. 1918-ci il 31 mart soyqırımı milli mətbuatımızın gözü ilə // – Bakı: AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan ədəbiyyatşünaslığı, – 2024. № 2, – s.92-96
10. Karimova, S.A. The genocide of march 31, 1918 in scientific research (During the years of Independence) // – Warscawa, Polska: Miçdzynarodowe czasopismo naukowe, Colloquium-journal, – 2024. № 34 (227), – p.62-64
11. Kerimova, S.A. Mehmet Emin Resulzadenin sanatsal gazete yazılarında soykırım meselesi // Söylem 4. Uluslararası Filoloji Sempozyumu, – İstanbul: – 10-12 Nisan, – 2025, – s.808-816



Dissertasiyanın müdafiəsi 15 sentyabr 2025-ci il tarixində saat 12³⁰-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.05 – Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Az-1073, Bakı ş., H.Cavid pr. 117, Akademiya şəhərciyi, Əsas bina, IV mərtəbə, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elektron Akt zalı.

Dissertasiya ilə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 31 iyul 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 30.06.2025

Kağızın formatı: A5

Həcm:48039

Tiraj: 100